

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 235 (21.896)

12 dekabr 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Əbədiyyət zirvəsi



*Vətənini, xalqını zamanın sərt sınaqlarından çıxaran dahilər tarixin əbədiyyət zirvəsinə ucalırlar. Azərbaycanın şanlı səhifələrlə dolu müstəqillik tarixinin müəllifi, xalqımızın xilaskarı və qurucu lideri Heydər Əliyev belə dahilərdəndir.*

Azərbaycanın müstəqil və inkişaf etmiş dövlət kimi regionda söz sahibi olması görkəmli dövlət xadimi, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə əvəzedilməz xidmətlər göstərmiş dahi Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. O, sağlığında xalqının ümummilli lideri adını qazanan yeganə şəxsiyyətdir. Dahi öndərin şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı üçün Vətənə xidmət nümunəsi, qürur və fəxarət rəmzidir.

Ulu öndərin ***“Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır”***, – kəlamı onun bütün həyat amalının, işıqlı ideyalarının ifadəsinə çevrilmişdir.

Bu bir həqiqətdir ki, Azərbaycanın inkişaf epoxası və müstəqillik tarixinin əsası 1969-cu ilin 14 iyulunda ulu öndərimiz Heydər Əliyevin ölkəmizə rəhbər seçilməsi ilə başlanmışdır. Azərbaycan xalqının tükənməz gücünə, zəngin potensialına dərindən inanan görkəmli dövlət xadimi böyük qətiyyətlə onu səfərbər edə bilmiş, bugünkü müstəqilliyimizin iqtisadi, siyasi, mənəvi əsaslarını hələ o illərdə yaratmış, iqtisadiyyatı çökməkdə olan aqrar ölkəni qısa bir zamanda inkişaf etmiş sənaye respublikasına çevirmiş, respublikanın hər yerində yeni zavod və fabriklər, elektrik stansiyaları, su kəmərləri, meliorasiya qurğuları, yeni müəssisələr tikilmişdi. Dahi rəhbər milli şüurda oyanışa, özünəqayıdışa, özünəinama nail olmuş, xalqın milli mənliyini özünə qaytarmış, milli kadr potensialı formalaşdırılmışdır.

Ümummilli liderimiz 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu barədə deyirdi: ***“Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır... SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərdilər. Aparılan təhlillər göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi”.***

Sovet rejiminin kifayət qədər güclü olduğu bir dövrdə milli dəyərlərin və milli şüurun bərpasına xidmət edən tədbirlərin görülməsi, Azərbaycan dili və Azərbaycan tarixi ilə bağlı tədqiqat işlərinin genişləndirilməsi, akademik nəşrlərin hazırlanması, rus dilinin yeganə rəsmi dil olduğu bir şəraitdə Azərbaycanın 1978-ci il Konstitusiyasına “Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir” müddəasının salınması xalqımızın böyük oğlunun misilsiz tarixi xidmətlərindəndir. 1982-ci ildə ümummilli liderimiz SSRİ-də rəhbər vəzifəyə irəli çəkildikdən sonra isə Azərbaycanın hərtərəfli inkişafı ilə yanaşı, xalqımızın dünya arenasında tanıdılması və təbliği istiqamətində görülən işlərin miqyası da genişləndirilmişdir. Bir sözlə, ümummilli lider Heydər Əliyevin hakimiyyətinin birinci dövrü Azərbaycanda ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuş, müasir Azərbaycan dövlətinin təməl prinsipləri məhz bu dövrdə yaradılmışdır.

Sovetlər Birliyi dövründə ulu öndərimiz Heydər Əliyevin Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqət çəkən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***“SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı”.***

1982-1987-ci illərdə görkəmli dövlət xadimi Heydər Əliyev həm də Azərbaycanı məkrli niyyətlərdən qorumuşdur. Təsadüfi deyil ki, Azərbaycanı parçalamaq istəyənlər yeganə çıxış yolunu ulu öndər Heydər Əliyevi siyasi fəaliyyətdən kənarlaşdırmaqda görürdülər. Nəhayət, 1987-ci ildə bu məkrli plan həyata keçirildi, ümummilli liderimiz rəhbər vəzifədən uzaqlaşdırıldı. Elə Azərbaycanın dəhşətli, faciəli günləri də bundan sonra başlandı. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal edildi, 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədildi. Lakin yenə də ulu öndər xalqının səsinə səs verdi, siyasi təqiblərə baxmayaraq, Azərbaycan uğrunda mübarizəyə qayıtdı, 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə ozamankı sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını cəsarətlə ittiham etdi, xalqımızın başına gətirilən bu müsibəti bütün dünyaya çatdırdı.

Ümummilli liderimiz 1990-cı il iyulun 20-də Bakıya gəldi. İki gün sonra – iyulun 22-də isə doğma Naxçıvana qayıtdı, bu qədim diyardan Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi. Ümummilli lider 1990-1993-cü illərdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən xilası və böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər gördü. Dahi şəxsiyyətin Naxçıvandan başladığı müstəqillik yolu Azərbaycanın qurtuluş mübarizəsinə çevrildi. Üçrəngli bayrağımız ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentində qaldırıldı, Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarıldı, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikası iştirak etmədi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvandan başlandı, bir sözlə, müstəqil dövlətçilik yolunda mühüm və əhəmiyyətli addımlar atıldı. Ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövrü dövlətçilik təcrübəsində xalq-lider birliyinin nələrə qadir olduğunu bir daha təsdiq etdi.

Həmin dövrdə ölkəmiz hakimiyyətsizlik, vətəndaş qarşıdurması, dövlət müstəqilliyini itirmək, işğal və parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Azərbaycana “rəhbərlik edənlər” ölkənin və xalqın gələcəyini deyil, öz şəxsi mənafelərini güdürdülər. Belə bir dövrdə xalqımız ümid yeri kimi Naxçıvana – ümummilli liderimiz Heydər Əliyevə üz tutdu, onu təkidlə siyasi hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 15-də ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin əsasını qoydu, ölkəmiz təlatümlər burulğanından xilas oldu, müstəqilliyimiz qorunub saxlandı, vətəndaş müharibəsinin qarşısı alındı, möhkəm ictimai-siyasi sabitlik yaradıldı, Azərbaycan yenidən əsası 1969-cu ildən başlanan inkişaf yoluna qayıtdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Millətlərin gücü və yenilməzliyi onların liderlərindən asılıdır. Lideri olmayan ölkə, xalq müstəqillik əldə edə və yaxud əldə olunmuş müstəqilliyi qoruyub saxlaya bilməz. Azərbaycanın müasir tarixi dəfələrlə sübut etmişdir ki, xalqın gücü ümummilli lider Heydər Əliyevdə olduğu kimi, ümummilli lider Heydər Əliyevin də gücü Azərbaycan xalqındadır. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndərimizin ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas etdi”.***

1993-cü ildən sonra dünyanın aparıcı dövlətləri və şirkətləri qısa zamanda siyasi sabitliyə və dinamik inkişafa nail olmuş Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul etdi, bağlanan beynəlxalq müqavilələr ölkəyə xarici investisiyanı cəlb etməklə iqtisadi tərəqqidə, əhalinin rifah halının yüksəlməsində mühüm rol oynadı. Ulu öndərimizin uzaqgörən siyasəti nəticəsində ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, “Əsrin müqaviləsi”nin imzalanması, vaxtilə çoxlarının əfsanə hesab etdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinin reallaşdırılması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yenilənməsinə, yeni iş yerlərinin açılmasına imkan verdi. Ölkəmizdə dövlət quruculuğu prosesinə başlandı, güclü ordu yaradıldı, ölkənin demokratik prinsiplərini, insanların siyasi hüquq və azadlıqlarının toxunulmazlığını bəyan edən müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Ulu öndər Heydər Əliyev bu barədə demişdir: ***“Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq. Bu yol xalq yoludur”.*** Azərbaycanın bu inkişaf yolunun əsasında ulu öndər Heydər Əliyevin Vətənə, xalqa sonsuz məhəbbəti, milli köklərə bağlılıq, tükənməz ümumxalq sevgisi dayanır.

Ümummilli liderimizin ideyaları, amalları bu gün də Azərbaycanın yoluna işıq, nur saçır, xalqımızı xoşbəxt gələcəyə aparır. Dünya dövlətləri sırasında layiqli yer tutan Azərbaycanın ulu öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Ümummilli liderimizin siyasi kursu Azərbaycan Prezidenti tərəfindən daha da zənginləşdiriləcək mükəmməl dövlətçilik fəlsəfəsinə çevrilmişdir. Bu gün böyük dövlət xadimi Heydər Əliyevin parlaq ideyalarının bəhrələri onun şah əsəri olan müstəqil, qüdrətli Azərbaycanın hər yerində, eləcə də doğma Naxçıvanımızda aydın görünür. Heydər Əliyev yolu ilə gedərək gündən-günə inkişaf və tərəqqiyə qovuşan Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında əldə olunan bütün nailiyyətlərdə ümummilli liderimizin fəal yaradıcı gücə malik olan ideyaları yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Bu gün heç kimin şübhə etmədiyi reallıq bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək siması və inkişaf perspektivlərini müəyyənləşdirir. Bu böyük şəxsiyyətin Azərbaycan naminə gördüyü işlər ölkəmizin milli sərhədlərini aşaraq bütövlükdə regionun və dünya sivilizasiyasının da tərəqqisinə xidmət edir. Təsadüfi deyil ki, məşhur dövlət və ictimai xadimlər ulu öndərimizi iyirminci əsr dünya siyasi fikir tarixinin canlı əfsanəsi və siyasət patriarxı adlandırırdılar. Xalqımızın böyük oğlu dünyanın ən nüfuzlu mükafatlarına, fəxri ad və titullarına layiq görülmüşdür. Onun öz sağlığında layiq görüldüyü ən yüksək mükafat isə Azərbaycan xalqının ümummilli lideri adını qazanmasıdır”.***

Ulu öndərin əbədiyyətə qovuşmasından ötən zaman bu dahi şəxsiyyətin milli dövlətçilik tariximizdəki yerini və rolunu daha dolğun dəyərləndirmək imkanı verir. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsi, demokratik hüquqi dövlətin qurulması, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-mənəvi yüksəlişə nail olunması ilə səciyyələnən mühüm tarixi mərhələdir. Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində mühüm yer tutan Heydər Əliyev epoxasının hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsidir.

Daim xalqının gələcək taleyi haqqında düşünən ulu öndərimiz Vətəni və xalqı ilə yaşadı, xalqını və doğma Vətənini yaşatdı. Hələ sağlığında xalqın qəlbində özünə əbədi abidə ucaldan ulu öndər Heydər Əliyev Azərbaycan xalqı durduqca onunla yaşayacaqdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaqdır. Biz – ulu öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq”.***

**“Şərq qapısı”**

# Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbirlər keçirilib



*AMEA Naxçıvan Bölməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib.*

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev müstəqil Azərbaycan dövlətinin qurucusu, dünya şöhrətli siyasətçi, ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətlərindən, dövlətçiliyimizin qorunması naminə həyata keçirdiyi daxili və xarici siyasətdən danışıb. Bildirib ki, görkəmli dövlət xadimi ölkəmizə rəhbərlik etdiyi bütün illərdə tariximizə, milli dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, təhsilimizə xüsusi diqqət və qayğı göstərib. O, hər zaman dəyərli fikir və tövsiyələr irəli sürüb, böyük əməli işlər görüb. Bu gün həyatımızın elə bir sahəsi yoxdur ki, orada ulu öndərin izi olmasın.

"Ümummilli lider Heydər Əliyev ideyası Azərbaycanın uğurlu gələcəyidir", – deyən akademik İsmayıl Hacıyev dahi öndərin siyasətinin, əbədiyaşar ideyalarının bu gün ölkə başçısı cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Heydər Əliyev irsi – əbədiyaşar təlim", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir" mövzularında məruzələr ediblər.

Məruzəçilər qeyd ediblər ki, dahi lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətini qurması, inkişaf etmiş bir dövlətə çevirərək xalqımıza miras qoyması onun Azərbaycan xalqı qarşısında ən böyük xidmətidir. Ulu öndərin parlaq ideyalarının gerçəkləşdirilməsi nəticəsində bu gün ölkəmizin hərtərəfli və sürətli inkişaf etməsi, baş verən əsaslı dəyişikliklər, xarici siyasətdəki uğurlar, həyata keçirilən qlobal layihələr Azərbaycanın qüdrətli dövlət olduğunu təsdiq edir.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

* * *

***Heydər Əliyev Muzeyində "Əbədiyaşar lider" mövzusunda keçilən açıq dərsdə Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbin şagirdləri iştirak ediblər.***



Muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, Azərbaycanın xilası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin ağır, çətin dövründə – 1990-cı il iyul ayının 20-də Moskvadan Bakıya, iki gün sonra isə doğma Naxçıvana qayıdan ulu öndərimiz buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik edib. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında dahi şəxsiyyətin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilib, muxtar respublikanın erməni təcavüzündən xilas olunması, böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər görülüb. Üçrəngli bayrağımızın ilk dəfə 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin iclasında qaldırılması, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, burada aqrar islahatların keçirilməsi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması müstəqil dövlətçilik yolunda atılan ilk addımlar idi. Məhz həmin sessiyada Naxçıvan Muxtar Respublikası Ali dövlət hakimiyyəti orqanı Ali Məclis adlandırılıb, "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərar qəbul edilib. Həmin qərarlar, sessiyaya gətirilən üçrəngli bayraq, 3 sentyabr 1991-ci ildə ulu öndərimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi haqqında qərar bu gün muzeydə nümayiş etdirilir.

Ramil Orucəliyev qeyd edib ki, ölkəmizin 40 ildən artıq bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutması məhz görkəmli dövlət xadimi, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə əvəzedilməz işlər görmüş Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ulu öndər xalqımızı can atdığı müstəqillik idealına qovuşdurub, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürüb. Buna görə də O, Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran bir rəhbər kimi xalqımızın qəlbində əbədi yaşamaq hüququ qazanıb.

**✍ Səbuhi HÜSEYNOV**

* * *

***Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə ümummilli liderimizin anım gününə həsr edilmiş tədbir keçirilib. Tədbir başlanmazdan əvvəl müəllim və şagirdlər dahi rəhbərin məktəbin həyətində ucaldılan abidəsi önünə gül dəstələri qoyublar.***

Tədbiri məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Namiq Məmmədov açaraq bildirib ki, böyük şəxsiyyətlər fəaliyyət göstərdikləri dövrdə siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə dəyişərək liderlik zirvəsinə yüksəlirlər. Tarix yaratmaq isə hər kəsə nəsib olmur. Ümummilli liderimiz Heydər Əliyev müasir Azərbaycanın siyasi tarixini yaradan müdrik şəxsiyyətdir. Adı müasir tariximizə qızıl hərflərlə yazılan dünya şöhrətli siyasətçinin ömür yolu xalqa xidmət nümunəsidir.

Sonra məktəbin dərs hissə müdiri Həsən Həsənov "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan", Yeni Azərbaycan Partiyası məktəb ilk ərazi təşkilatının sədri Könül Mirzəyeva "Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradıcısıdır", tarix müəllimi Feyruz Novruzov "Görkəmli dövlət xadimi Heydər Əliyev və Azərbaycan təhsili" mövzularında çıxış ediblər.

Qeyd olunub ki, Azərbaycanı bəşər sivilizasiyasının beşiyi olan ölkələrdən biri, xalqımızı isə zəngin və unikal bir mədəniyyətin övladları adlandıran dahi şəxsiyyətin ən böyük xidmətlərindən biri də məhz şərəfli tarixi keçmişimizi bərpa etməsi, milli-mənəvi irsimizin dəyərlərini, milli adət-ənənələrimizi yaşatması, Azərbaycançılıq məfkurəsinin və milli ruhun yüksəlişi, milli özünüdərkin hər cür buxovlardan azad olunaraq, öz həqiqi təsdiqini tapması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularımızın reallaşmasına nail olmasıdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycan taleyini Heydər Əliyev məktəbinin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət etmişdir.

Tədbirdə slaydlar nümayiş etdirilib, sərgiyə baxış olub və ədəbi-bədii kompozisiya göstərilib.

**✍ Fatma BABAYEVA**

***Naxçıvan Muxtar Respublika Xəstəxanasında ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Azərbaycan səhiyyəsində yüksək texnologiyalar və innovasiyaların tətbiqi" mövzusunda elmi-praktik konfrans keçirilib.***



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin dəstəyilə Bakı Ürək Mərkəzi və Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası tərəfindən təşkil olunan konfransın iştirakçıları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, muzeylə tanış olublar.

Konfransda Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov çıxış edərək bildirib ki, insan amili, onun layiq olduğu səviyyədə yaşamasının təmin edilməsi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların mühüm tərkib hissələrindən biridir. Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və uzunmüddətli dövrə, uğurlu strategiyaya əsaslanan bu alternativsiz inkişaf yolu ölkəmizin hər bir bölgəsində diaqnostika-müalicə mərkəzlərinin, xəstəxanaların tikilərək istifadəyə verilməsində, tibb müəssisələrinin müasir səhiyyə avadanlıqları ilə təmin olunmasında, həkimlərin peşə hazırlığının diqqət mərkəzində saxlanılmasında mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada bu yolun sədaqətlə davam etdirilməsi əhalinin sağlamlığının qorunmasını, tibbi xidmət səviyyəsinin yüksəldilməsi bu sahənin maddi-texniki bazasının gücləndirilməsində mühüm rol oynayır.

Vurğulanıb ki, muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində bu gün səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla, yeni texnologiyalarla müayinə və müalicə işləri aparılır. Yüksəkixtisaslı həkimlər angioqrafiya, kompüter tomoqrafiyası, rəqəmsal rentgenoqrafiya, mammoqrafiya, hemodializ, nüvə maqnit rezonansı və bir çox müasir aparatlarla xəstələrə xidmət edir, müstəqil şəkildə TUR, açıq ürək, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatları yerinə yetirirlər.

Konfransda çıxış edən Milli Məclisin deputatı, Bakı Ürək-Damar Mərkəzinin ürək və damar cərrahı, tibb elmləri doktoru, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının sədri Rəşad Mahmudov Azərbaycan dövləti tərəfindən son illər səhiyyəyə diqqətin artırılması nəticəsində bir sıra uğurlara nail olunduğunu bildirib. O qeyd edib ki, vətəndaşların sağlamlığının qorunması istiqamətində görülən tədbirlər öz bəhrəsini verməkdədir. Səhiyyə sahəsinin modernləşdirilməsi, bununla bağlı infrastrukturun yenilənməsi, yeni tibb müəssisələrinin istifadəyə verilməsi və ən müasir avadanlıqlarla təchiz edilməsi, səhiyyənin informasiyalaşdırılması, bu sistemin dövrümüzün tələblərinə uyğunlaşdırılması, bütövlükdə, ölkə səhiyyəsinin inkişafına töhfə verib.

Sonra Rəşad Mahmudov "Ürək cərrahiyyəsində minimal invaziv və hibrid prosedurlar", Bakı şəhərində fəaliyyət göstərən Respublika Müalicəvi Diaqnostika Mərkəzinin həkimlərindən professor, diaqnostik-invaziv radioloq Əhməd Məmiş "Endovaskulyar intervensiyalar və invaziv radiologiyada innovasiyalar", torakal cərrah Elmar Məmmədov "Minimal invaziv ağciyər cərrahiyyəsi", neyrocərrah Azər Ələkbərov "Neyrocərrahiyyədə innovativ metodların tətbiqi: klinik təcrübəmiz", Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin ürək-damar cərrahı Cabir Gülmalıyev "Müasir təbabətdə ECMO-nun tətbiqi" mövzularında məruzələr ediblər.

Yerli səhiyyə ocaqlarının həkimlərinin iştirak etdikləri tədbir təqdimatlar ətrafında müzakirələrlə yekunlaşıb.

Qeyd edək ki, mütəmadi olaraq keçirilən elmi-praktik konfransların təşkilində məqsəd tibb ictimaiyyətini bir araya gətirməklə ölkə səhiyyəsindəki yüksək texnologiyalar və innovasiyaların tətbiqi ilə bağlı nailiyyətlərin diqqətə çatdırılması və təcrübə mübadiləsinin aparılmasıdır.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Naxçıvan Dövlət Universiteti Avrasiya Universitetlər Birliyinin üzvü seçilib

***Naxçıvan Dövlət Universiteti dünyanın ən önəmli təhsil qurumlarından olan Avrasiya Universitetlər Birliyinin (EURAS) üzvü seçilib.***

2008-ci ildə İstanbulda təsis edilmiş Türkiyə, Azərbaycan və digər ölkələrin ali məktəblərinin təsis etdiyi Avrasiya Universitetlər Birliyinin məqsədi universitetlər arasında işbirliyini gücləndirmək, yeni layihələr həyata keçirməkdir. Avropa, Asiya və Yaxın Şərq regionlarından olan universitetləri birləşdirən qurumun həyata keçirdiyi layihələr mübadilə proqramları, birgə elmi tədqiqatlar, nəşrlər, təqaüd proqramlarıdır.

Bu münasibətlə universitetdə keçirilən tədbirdə ali təhsil ocağında təhsilin səviyyəsinin daha da yaxşılaşdırılması, yaradılan əlverişli şəraitdən səmərəli şəkildə istifadə olunması, dünyanın, o cümlədən, ölkəmizin qabaqcıl ali təhsil ocaqları ilə əlaqələrin genişləndirilməsi, universitetin beynəlxalq arenada tanıdılması və təbliği istiqamətində işlərin bundan sonra da davam etdiriləcəyi bildirilib.

Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti son illər beynəlxalq əlaqələrin genişləndirilməsi sahəsində xeyli irəliləyişlər əldə edib. Universitetin hazırda dünyanın 50-dən çox ölkəsinin 80-dən çox ali təhsil ocağı ilə əlaqələri mövcuddur. Hazırda Naxçıvan Dövlət Universitetində "Mövlana", Tempus, Erasmus+, Erasmus Mundus proqramları həyata keçirilir.

**Səadət ƏLİYEVA**

## Miqrasiya proseslərinin idarə olunması müasir tələblər səviyyəsindədir

*Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər ötən ay ərzində də davam etdirilib.*

Noyabr ayında xidmət tərəfindən muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərini pozmuş 21 əcnəbi aşkarlanıb. Onlardan 19-u barəsində Azərbaycan Respublikası ərazisinin 48 saat ərzində tərketmə, 2-si barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 637 müraciət daxil olub. Bu müraciətlərdən 117-si əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlər ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Ötən ay olduğu yer üzrə qeydiyyatla bağlı 520 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 218-i elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

**Xəbərlər şöbəsi**

*İcmal*

# Heydər Əliyev ideallarına sadiq olan Naxçıvanda dahi şəxsiyyətin müəyyənləşdirdiyi strateji inkişaf xətti uğurla davam etdirilir

***Dövrümüzün ictimai-siyasi reallıqları, geopolitik məkanda baş verən dəyişikliklər və bütün bu təlatümlərin fövqündə dayanan müasir milli dövlətçiliyimizin gündən-günə möhkəmlənməsi, güclənməsi, ölkəmizin, o cümlədən muxtar respublikamızın sosial-iqtisadi baxımdan sürətlə inkişaf etməsi dahi şəxsiyyət Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun uğurla davam etdirilməsinin nəticəsidir. Təsadüfi deyil ki, bu gün Azərbaycanın tarixi dövlətçilik ənənələrinin qorunduğu, yaşadıldığı Naxçıvanda müstəqil respublikamızın memarı və qurucusu olan ulu öndərimizin siyasi irsinin öyrənilməsinə, təbliğinə, gənc nəslə aşılanmasına xüsusi əhəmiyyət verilir, görkəmli dövlət xadimi ilə bağlı tarixi günlər yüksək səviyyədə qeyd edilir. Ötən ayın ən əhəmiyyətli hadisələrindən biri kimi, noyabrın 21-də Naxçıvanda qurucusu görkəmli dövlət xadimi Heydər Əliyev olan Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə keçirilən tədbir də muxtar respublikada ulu öndərin yoluna, onun ideallarına sədaqətin növbəti təzahürü idi.***

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbov və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvləri ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

"Araz" Dövlət Qəbul Evində davam etdirilən tədbirdəki çıxışında Ali Məclisin Sədri partiyanın ölkəmizin siyasi tarixində oynadığı mühüm rolu barədə deyib: ***"Yeni Azərbaycan Partiyasının inkişafında müstəqil və qüdrətli Azərbaycanın inkişafı aydın görünür. Yaradıcısı ümummilli lider, özü isə ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyası daim Azərbaycançılıq uğrunda mübarizənin önündə dayanmışdır. Bu gün əminliklə deyirik ki, ötən 25 ildə Yeni Azərbaycan Partiyasının keçdiyi yol, əldə etdiyi nailiyyətlər böyük quruculuq salnaməsidir. Azərbaycanın davamlı inkişafı, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, güclü orduya malik olmağımız, dünyanın inkişaf edən ölkələri sırasında layiqli yer tutmağımız Yeni Azərbaycan Partiyasının təməlində duran prinsiplərin əməli surətdə həyata keçirilməsinin nəticəsidir".***

Ötən illər ərzində muxtar respublikamızın sosial-iqtisadi həyatında əldə olunan nailiyyətlər bir daha Yeni Azərbaycan Partiyasının qazandığı uğurlardan, dahi şəxsiyyətin yoluna sarsılmaz sədaqətdən xəbər verir. Bu gün Naxçıvanda enerji və ərzaq təhlükəsizliyi təmin olunub, muxtar respublikanın etibarlı müdafiə sistemi yaradılıb. Sosial-iqtisadi inkişaf sürətləndirilib. Həyata keçirilən islahatların əhatə dairəsi genişləndirilib. Yeni iş yerləri açılıb, əhalinin yaşayışı yaxşılaşdırılıb. Əsası da odur ki, inkişaf davamlı xarakter daşıyır.

Ekoloji problemlər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə ümummilli liderimiz Heydər Əliyevin daim diqqət mərkəzində olub. Həmin problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi bu gün muxtar respublikamızda da diqqət mərkəzində saxlanılır. Ən mühüm ekoloji tədbir kimi yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirlərinə xüsusi diqqət yetirilir.

Noyabrın 4-də muxtar respublikada növbəti iməcilik keçirilib, Naxçıvan-Sədərək avtomobil yolunun kənarında yeni badam bağı salınıb. Noyabrın 25-də isə həmin istiqamətdə yerli meyvə sortlarından ibarət meyvə tingləri əkilib.

Ali Məclisin Sədri iməciliklərdə iştirak edib, payız iməcilikləri dövründə yeni meyvə bağlarının salınması barədə tapşırıqlar verib.

Muxtar respublikanın bütün yaşayış məntəqələrində müşahidə olunan inkişaf tempi ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyənləşdirilən ***"Güclü dövlət, yüksək rifah"*** strategiyasının bəhrəsidir. Bu inkişafdan və tərəqqidən Şərur rayonuna da pay düşüb.

Görülən işlərin davamı olaraq noyabrın 6-da Şərur rayonunun Ələkli kəndində yeni sosial obyektlərin açılışı olub. Ali Məclisin Sədri həmin tədbirlərdə iştirak edib.

Kənddə müasirtipli məktəb binasının istifadəyə verilməsi təhsilin inkişafına göstərilən qayğının davamıdır. Dövlət qurumlarının yeni kənd mərkəzində fəaliyyətə başlaması sakinlərin rahatlığının təmin olunması ilə bərabər idarəçiliyin mərkəzləşdirilməsində də rol oynayır. Əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilən Ələkli kəndindəki avtomobil yolunun, eləcə də yeni xidmət mərkəzinin və mərasim evinin də açılışı olub. Yeni mərasim evinin tikilməsi sakinlərin rahatlığını təmin etməklə yanaşı, həm də milli və mənəvi dəyərlərimizə hörmətin bariz nümunəsidir.

Həmin gün Ələkli Kənd Uşaq Musiqi Məktəbinin yeni binası da istifadəyə verilib. Bu, muxtar respublikada gənc nəslin təhsili ilə yanaşı, onların istedad və bacarıqlarının üzə çıxarılmasına, eləcə də asudə vaxtlarının səmərəli təşkilinə xüsusi diqqət yetirildiyini bir daha göstərir.



Muxtar respublikada dövlətçiliyimizin güclənməsində xidmətləri olanların, inkişafa töhfə verənlərin əməyi yüksək qiymətləndirilir. Noyabrın 8-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.

Ali Məclisin Sədri təltif olunanları ölkəmizin yüksək fəxri adlarına layiq görülmələri münasibətilə təbrik edib. Hər il noyabrın 9-nun ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunduğunu diqqətə çatdıran Ali Məclisin Sədri dövlət bayrağımızın ucaldılmasının təşəbbüskarlarına ehtiramını bildirib, müstəqilliyimizin möhkəmlənməsində əməyi olanlara təşəkkür edib, təltif olunanları və onların timsalında bütün muxtar respublika əhalisini Dövlət Bayrağı Günü münasibətilə təbrik edib.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının medallarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim edib.

Zəngin və şərəfli inkişaf yolu keçən Naxçıvan Dövlət Universiteti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyalarına köklənmiş dövlətçilik universitetidir. Şəhərsalma mədəniyyətinin tarixi 5 min il olan Naxçıvanda elmin və təhsilin inkişafı sahəsində görülən işlər bu ali təhsil ocağının timsalında daha aydın görünür. Bu gün burada geniş quruculuq tədbirləri aparılıb. Həyata keçirilən tədbirlərin bariz nümunəsidir ki, noyabrın 10-da – universitetin 50 illik yubileyində Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsi üçün müasir tələblərə uyğun yeni tədris korpusu istifadəyə verilib. Həmin gün Naxçıvan Dövlət Musiqili Dram Teatrında universitetin 50 illiyi ilə əlaqədar tədbir keçirilib.

Ali Məclisin Sədri yubiley tədbirindəki çıxışında deyib: ***"Bu gün qətiyyətlə demək olar ki, Naxçıvan Dövlət Universitetinin keçdiyi yol zəngin maarifçilik ənənələrinə malik olan Naxçıvan Muxtar Respublikasının təhsilin yeni inkişaf tarixidir. Universitet muxtar respublikada ali təhsil sisteminin inkişafı ilə yanaşı, milli şüurun formalaşmasında, gənclərin vətənpərvərlik tərbiyəsində də mühüm xidmətlər göstərmiş, burada peşəkar milli kadrlar hazırlanmışdır. Artıq Naxçıvan Dövlət Universitetinin məzunları Azərbaycanda milli dövlət quruculuğunun müxtəlif sahələrində çalışır, sosial-iqtisadi inkişafa öz töhfələrini verirlər".***

Tədbirdə Azərbaycan Respublikasının medal və fəxri adlarına, Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülənlərə müvafiq təltif və mükafatların təqdimatı olub.

Ali Məclisin Sədri təltif olunanlara medal və fəxri adların döş nişanını və vəsiqələrini, eləcə də tədrisdə və təhsildə fərqlənən 10 müəllim və 8 tələbəyə noutbuk, 24 tələbəyə isə planşet təqdim edib.

Doğma diyarımızda təsərrüfatın çox mühüm və gəlirli sahəsi olan arıçılığın inkişafına böyük diqqət göstərilir. Bu sahənin inkişafı ilə əlaqədar dövlət maliyyə dəstəyinin həcmi xeyli artırılıb, balın emalı və qablaşdırılması ilə məşğul olan yeni istehsal sahələri istifadəyə verilib. Arıçılığın inkişafı sahəsində həyata keçirilən tədbirlər, balın satışı üçün yaradılan şərait keyfiyyətli məhsul istehsalına və arı ailələrinin sayının artmasına səbəb olub. Əgər muxtar respublikada 2000-ci ildə 12 min 620 arı ailəsi var idisə, hazırda arı ailələrinin sayı 70 mindən çoxdur. Son illər arıçılar balla yanaşı, qiymətli arı məhsulları olan vərəmum, çiçək tozcuğu, güləm, arı südü və digər arıçılıq məhsulları da istehsal edirlər. Xüsusi tibbi əhəmiyyətə malik olan bu cür qiymətli arı məhsullarına tələbat ilbəil artır.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2016-cı il noyabrın 18-də "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Dövlət Proqramına uyğun olaraq noyabrın 11-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Arıçılıq məhsulları-bal festivalı" keçirilib.

Ali Məclisin Sədri festivalda iştirak edib, Naxçıvan balının sərgi-satışı ilə tanış olub, bal və digər arıçılıq məhsulları alıb, arıçılarla söhbət edib, onların qayğıları ilə maraqlanıb.

Naxçıvan Muxtar Respublikasında bütün sahələrin inkişaf etdirilməsi, güclü infrastrukturun qurulması, yurdumuzun turizm potensialı bura səfər edən xarici ölkələrin diplomatik korpuslarının səlahiyyətli nümayəndələrinin də diqqətini cəlb edir. Noyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan İanku, noyabrın 16-da Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas, həmin gün Kuba Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alfredo Fidel Nieves Portuondo ilə görüşündə də bu məsələlər diqqət mərkəzində olub.

Muxtar respublikanın kəndlərində yaradılan müasir infrastruktur, istehsal olunan məhsulların sərbəst bazara çıxarılması imkanlarının yaradılması, təsərrüfat sahiblərinə göstərilən maliyyə dəstəyi ailə təsərrüfatlarının inkişafına şərait yaradıb. Hazırda muxtar respublikanın 87 kəndində böyük ailə təsərrüfatları vardır. Noyabrın 18-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalı həmin sahənin inkişaf etdirilməsinə verilən əhəmiyyətin növbəti nümunəsi, bu sahəyə dövlət qayğısının əyani ifadəsi kimi diqqəti cəlb edir.

Ali Məclisin Sədri festivalda iştirak edib, ailə təsərrüfatlarının fəaliyyəti ilə maraqlanıb, təsərrüfat sahibləri ilə söhbət edib, onların istehsal etdikləri məhsullardan alıb.

Muxtar respublikanın dağ kəndlərində müasir infrastrukturun yaradılması yaşayış məntəqələrinin inkişafına mühüm töhfədir. Noyabrın 21-də – Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümündə Ordubad rayonunun Üstüpü kəndi də abad kəndlərin sırasına qoşulub. Həmin gün kənddə tam orta məktəbin yeni binası, həkim ambulatoriyası, kənd mərkəzi, həmçinin Üstüpü və Düylün kəndlərində yeni xidmət obyektləri, Düylün-Çənnəb-Üstüpü-Məzrə kənd avtomobil yolu sakinlərin istifadəsinə verilib.

Ali Məclisin Sədri kənddə yeni sosial obyektlərin istifadəyə verilməsi və bu yaşayış məntəqəsinin abad kəndlərin sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək deyib: ***"Bu gün ölkəmizdə həyata keçirilən tədbirlər bütün yaşayış məntəqələrinin, eləcə də kəndlərin simasını dəyişir, insanların yaşayış səviyyəsini yaxşılaşdırır. Hər bir yaşayış məntəqəsinin abadlaşması ümumilikdə ölkəmizin inkişafı deməkdir. Bütün bu tədbirlər ölkəmizdə uğurla həyata keçirilən Heydər Əliyev siyasi xəttinin bəhrələridir".***

Üstüpü kəndində bu gün yaradılan şərait sakinlərin rahat yaşayışını təmin edir. Vaxtilə kəndin yol problemləri vardı. İnsanlar mərkəzlə əlaqə saxlamaqda çətinliklər çəkirdi. Uşaqlar lazımi şəraiti olmayan məktəbdə təhsil alırdı. Xidmət sahələri səmərəli fəaliyyət göstərmirdi. Lakin bu gün qeyd olunan problemlərin hər biri həll olunub, kənddə yeni xidmət sahələri yaradılıb, iş yerləri açılıb. Sakinlər də yaradılan bu şəraitdən səmərəli istifadə edərək ölkəmizin inkişafına töhfə verəcək, əkin sahələrini genişləndirəcəklər. Təbii ki, bütün bunlar əhalinin məskunlaşmasına və məşğulluğuna da öz müsbət təsirini göstərəcəkdir.

Qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanın ərazisi min illərin tarixini özündə saxlayan yaşayış məskənləri, tarixi abidələrlə zəngindir. Buradakı mağaralar, qədim yaşayış yerləri, möhtəşəm qalalar, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələr tarixin dərin qatlarından xəbər verir. Muxtar respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələri tariximizin daş yaddaşı kimi qorunur, onların bərpası diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamı, bununla bağlı tədqiqat qrupunun yaradılması da görülən işlərin davamıdır. Sərəncama uyğun olaraq ötən ildən etibarən Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin görkəmli nümunələrindən olan Qarabağlar Türbə Kompleksində bərpa işlərinə başlanıb.

Noyabrın 25-də Ali Məclisin Sədri Qarabağlar Türbə Kompleksində olub, bərpa işlərinin gedişi və bundan əvvəl verdiyi tapşırıqların icrası ilə maraqlanıb, müvafiq tapşırıq və tövsiyələrini verib.

Naxçıvan görkəmli tarixi şəxsiyyətlərin Vətəni kimi şöhrət qazanıb. Bu gün həmin şəxsiyyətlərin irsinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi tarixi keçmişimizə dərin hörmət və ehtiramın təzahürüdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 9 fevral tarixli Sərəncamı ilə Kəngərli rayonunun Şahtaxtı kəndində yaradılan Şahtaxtinskilər Muzeyi də Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, dövlət quruculuğunun və hərb sənətinin inkişafında mühüm xidmətləri olan Şahtaxtinskilər nəslinin görkəmli nümayəndələrinin həyat və fəaliyyətinin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

Noyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şahtaxtinskilər Muzeyində olub, aparılan yenidənqurma işləri ilə maraqlanıb.

Muxtar respublikanın kompleks inkişafı sərhəd yaşayış məntəqəsi olan Sədərək rayonunu da əhatə edib. Rayonda geniş quruculuq işləri aparılıb, müasir infrastruktur yaradılıb, sakinlərin rahat yaşayışı təmin edilib. Həyata keçirilən tədbirlər Sədərək rayonunda bütün sahələrin inkişafı üçün geniş imkanlar açır.

Noyabrın 28-də Sədərək Rayon Mədəniyyət Evinin yeni binası və "Sədərək" Taxıl Məhsulları Emalı Müəssisəsi əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilib.

***Bu gün Naxçıvan Muxtar Respublikasında əldə olunan nailiyyətlər, tətbiq edilən yeniliklər, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, tarixi keçmişimizə, böyük gələcəyimizə göstərilən diqqət və qayğı, müasir dövrün tələblərinə həmahəng olan məqsədyönlü işlər uğurların zəmanətinə çevrilib. Ötən ayın nəticələrinə diqqət yetirdikdə bir daha əminlik yaranır ki, muxtar respublikamızda əldə olunmuş inkişaf göstəriciləri bundan sonrakı dövrdə də növbəti nailiyyətlər üçün əsaslar yaradır. Bütün bunların təməlində isə ulu öndər Heydər Əliyev siyasi kursuna sarsılmaz sədaqət, əqidə bütövlüyü, milli dövlətçiliyə sıx bağlılıq, yüksək nizam-intizam, yorulmaz fəaliyyət və vətənpərvərlik dayanır.***

**Rauf KƏNGƏRLİ**

***Qədim Naxçıvan milli mədəniyyətimizin inkişafına təkcə tarixi memarlıq abidələri ilə deyil, həm də zəngin xalçaçılıq ənənələri ilə töhfə verib. Regionun iqlimi, füsunkar təbiəti burada palaz, kilim, sumax, vərni, şəddə, zili və cecim kimi xalça növlərinin toxunmasına, ümumilikdə isə xalçatoxuma sənətinin inkişaf etdirilməsinə şərait yaradıb. Muxtar respublikada aparılan arxeoloji tədqiqatlar nəticəsində xalça toxunuşunda istifadə olunan ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları kimi materialların əldə edilməsi Naxçıvanın Azərbaycanın ən qədim toxuculuq mərkəzlərindən biri olduğunu sübuta yetirir.***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Milli xalçalarımız əcnəbilərin ən çox maraq göstərdiyi maddi-mədəniyyət nümunələridir





Orta əsr səyyahları da Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə öz əlyazmalarında dəyərli məlumatlar veriblər. Xüsusilə Böyük İpək Yolu üzərində yerləşən Naxçıvanın orta əsrlərdə mühüm ticarət mərkəzlərindən birinə çevrilməsi burada müxtəlif xalq yaradıcılığı nümunələrinin, el sənətkarlığının inkişafına mühüm təsir göstərib. Xalçaçılıq sənəti isə bir xalq yaradıcılığı sahəsi kimi daha geniş yayılıb, demək olar ki, əksər evlərdə bu ənənə davam etdirilib. Bunun nəticəsidir ki, ötən əsrin sonlarınadək muxtar respublikada ənənəvi xalq yaradıcılığı sahələrindən ən çox davam etdirilən də elə xalçaçılıq sənəti olub. Sonrakı dövrlərdə isə bu sənətin inkişafı istiqamətində muxtar respublikada məqsədyönlü tədbirlər həyata keçirilib. Bu mədəni irsin qorunması və təbliği diqqət mərkəzində saxlanılıb. Görülən işlər milli xalçaçılıq sənətinin yaşadılmasına və bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına stimul olub. 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi isə milli xalça nümunələrimizin tanıdılmasına öz töhfəsini verib. 2010-cu ildə muzey yeni bina ilə təmin olunub, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub.

Hazırda muzeydə 3000-dən çox eksponat saxlanılır. Ekspozisiyada nümayiş etdirilən nümunələrin sayı 300-ü keçib. Burada xalçaçılığa aid eksponatlar üçün müasir mühafizə standartlarına uyğun şərait yaradılıb. Xovsuz və xovlu xalça növləri, habelə məfrəş, xurcun, torba kimi məmulatların ən gözəl nümunələri muzeyi bəzəyir. İndi bu mədəniyyət ocağında Naxçıvan qrupuna aid 100-dən çox xalça, eyni zamanda müxtəlif əl işləri və tikmələr nümayiş etdirilir. Muzeydə Naxçıvan xalçaçılıq sənətinin öyrənilməsi və təbliği istiqamətində müəyyən tədbirlər görülür. Müşahidələrimə əsaslanaraq deyə bilərəm ki, Naxçıvan Dövlət Xalça Muzeyi muxtar respublikaya gələn əcnəbilərin ən çox ziyarət etdiyi ünvanlardan biridir.

Peşə fəaliyyətimlə də bağlı bu mədəniyyət müəssisəsinə gələn və xalçalarımızı məftunluqla seyr edən əcnəbi qonaqları çox müşayiət etmişəm. Gəldiyimiz qənaət də bundan ibarət olub ki, xarici ölkələrdən gələnlər üçün milli xalçalarımız özünəməxsus əhəmiyyət kəsb edir.

***Haşiyə.*** Yaxın və uzaq tarixdən də məlumdur ki, milli xalçalarımız zaman-zaman bu və ya digər şəkildə ölkədən çıxarılaraq xarici muzeylərin və yaxud müxtəlif şəxslərin kolleksiyasını bəzəyib. Ancaq təəssüfləndirici məqamlardan biri odur ki, xalça nümunələrimiz bir çox hallarda başqa xalqlara məxsus adlarla tanıdılıb. Mənfur ermənilər bu sahədəki canfəşanlıqları ilə daha çox irəli gediblər. Ancaq bu fakt həm də onun təsdiqidir ki, ermənilərin milli dəyərlərimizə aid iddia etdikləri istənilən sənət nümunəsi öz zənginliyi ilə seçilir. Buradan isə o nəticəyə gəlmək mümkündür ki, milli xalçalarımız əsrlər boyu olduğu kimi müasir dövrdə də digər xalqların nümayəndələri tərəfindən böyük maraqla qarşılanır. Bu maraqdan irəli gəlir ki, son illərdə muxtar respublikaya gələn turistlər Naxçıvan Dövlət Xalça Muzeyinə baş çəkir, burada nümayiş etdirilən milli xalça nümunələrimizi heyranlıqla seyr edirlər. Muzeyin ekspozisiyasında toxuma dəzgahlarının qoyulması xalçalarımızın necə toxunduğunu əyani şəkildə tamaşaçılara çatdırır. Əl əməyi, göz nuru ilə ərsəyə gələn sənət nümunələri isə özünəməxsusluğu ilə seçilir.

Bəs milli xalça nümunələrimizi əcnəbi qonaqlara sevdirən nədir? Əvvəlcə qeyd edək ki, keçmişdə olduğu kimi müasir dövrdə də evlərin döşənməsində təbii xalça məmulatlarını əvəz edəcək hələlik heç bir vasitə icad olunmayıb. Digər tərəfdən xalçaçılığın inkişafı yalnız təbii iqlim şəraitinin əlverişli olduğu ölkələrdə mümkün olub. Burada qoyunçuluğun inkişafından tutmuş müxtəlif bitkilərdən alınmış təbii rənglərədək bir çox vasitələrin olması mühüm şərt kimi rol oynayıb. Bundan əlavə, tarixən bir çox sənət sahələri fabrik-zavod mərhələsinə qədəm qoysa da, xalçaçılıq özünün kiçik əmtəə istehsalı xarakterini saxlayıb. Bu isə böyük zəhmət və səbir tələb edən, aylarla davam edən xalçatoxuma işinin çətinliklərini ortaya qoyur. Eyni zamanda bu işdə ənənəviliyin qorunması, milli kompozisiyaların özünəməxsusluğu onu qlobal dünyada daha da sevdirib. Elə buna görədir ki, tarixboyu xalçaçılıq məmulatları Şərqdən Qərbə daşınıb.

Maraqlı burasıdır ki, bir çox incəsənət nümunələri ilə Qərb renessansına böyük töhfələr verən Avropa xalqları ənənəvi xalçaçılıq mədəniyyətindən yararlana bilməyiblər – onu yalnız idxal ediblər. Elə bunun nəticəsidir ki, indiyədək heç kim yapon və ya alman xalçası, Cənubi Koreya kilimi və yaxud İsveç gəbəsi sözünü eşitməyib. Ancaq bununla yanaşı, əcnəbilər milli xalçalarımızı həmişə qiymətləndiriblər. Bu xalçalardan istifadənin insan sağlamlığı üçün nə qədər faydalı olduğunu dərk etsələr də, onları, əsasən, sənət əsəri kimi saxlamağa üstünlük veriblər. Elə xalçaçılıq nümunələrimizə göstərilən bu maraqdan irəli gəlir ki, muxtar respublikamıza gələn əcnəbi qonaqların əksəriyyəti Naxçıvan şəhərinin mərkəzində yerləşən xalça muzeyinə baş çəkir. 2017-ci ilin yanvar ayından indiyədək muzeyi ziyarət etmiş 6 mindən çox tamaşaçının 3500-dən çoxunu əcnəbi qonaqların təşkil etməsi də milli xalçalarımıza olan bu maraqdan və həssaslıqdan irəli gəlir.

✍ **Səbuhi HƏSƏNOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 11 dekabr 2017-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

**hektarla**

| | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 5053,5 | 4704,0 | 349,5 |
| 2. | Babək rayonu | 8769,0 | 5792,0 | 2977,0 |
| 3. | Ordubad rayonu | 1543,0 | 721,0 | 822,0 |
| 4. | Culfa rayonu | 5074,0 | 4027,0 | 1047,0 |
| 5. | Kəngərli rayonu | 4181,0 | 2012,0 | 2169,0 |
| 6. | Şahbuz rayonu | 1097,0 | 1072,0 | 25,0 |
| 7. | Sədərək rayonu | 1849,0 | 1339,0 | 510,0 |
| 8. | Naxçıvan şəhəri | 885,8 | 697,0 | 188,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **28452,3** | **20364,0** | **8088,3** |

## Seminar-treninqlər təşkil olunur

***Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən elan olunan "Təhsildə inkişaf və innovasiyalar" üzrə qrant müsabiqəsinin qalibi Şərur şəhər 1 nömrəli tam orta məktəbin direktor əvəzi Əli Mehdiyev olub.***

Şərur Rayon Təhsil Şöbəsindən aldığımız məlumata görə, dövlət ümumtəhsil müəssisələri və bu müəssisələrdə çalışan pedaqoji işçilər üçün elan edilən qrant müsabiqəsində prioritet sahələr nəzərə alınıb, müsabiqə 2 kateqoriya – ümumtəhsil müəssisələri və fərdi layihələr üzrə keçirilib.

Bu müsabiqədə Şərur şəhər 1 nömrəli tam orta məktəbin adından direktor əvəzi Əli Mehdiyev iştirak edərək "Məktəbdaxili rəhbərlik və nəzarətin təkmilləşdirilməsi" layihəsi ilə qalib olub. Layihə rəhbəri Əli Mehdiyev tərəfindən sentyabr ayının 22-dən başlayaraq rayonun müxtəlif ümumtəhsil məktəblərində seminar-treninqlər təşkil edilib. İştirakçılar təlim materialları və metodik vəsaitlərlə təmin olunublar. Məlumat üçün bildirək ki, seminar-treninqlər dekabr ayının 22-dək davam edəcək.

Qeyd edək ki, təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsinin keçirilməsində başlıca məqsəd təhsil müəssisələrində və təhsilverənlərdə sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdırmaqdır. Müsabiqə müasir tələblər baxımından məktəbdaxili rəhbərlik və nəzarətin təkmilləşdirilməsi, pedaqoji işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı uşaqlarla işin təşkili ilə bağlı, ümumilikdə, 10 mövzu üzrə keçirilib.

Ümumtəhsil müəssisələri kateqoriyası üzrə müsabiqədə istənilən dövlət tam orta ümumtəhsil müəssisəsinin iştirak etmək hüququ vardır. İbtidai və orta ümumtəhsil müəssisələrinin yalnız tam orta ümumtəhsil müəssisələri ilə birgə layihə verməsi mümkündür. Fərdi layihə kateqoriyası üzrə müsabiqədə iştirak üçün bütün ümumtəhsil müəssisələrində işləyən pedaqoji işçilər layihə təqdim edə bilərlər.

## İnşa yazı müsabiqəsinin ilk mərhələsi keçirilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam ilə bağlı olaraq gənclərdə yazı vərdişlərinin formalaşması üçün inşa yazı müsabiqəsi keçirilir.***

Müsabiqədə muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları və Naxçıvan Dövlət Texniki Kollecinin I-III kurs tələbələri iştirak edirlər.



Qaliblər mövzu əhatəliliyinə və yazı qaydalarına riayət edilmiş inşa yazılara görə seçilir.

Məlumat üçün bildirək ki, şəhər və rayonlar üzrə təşkil edilən müsabiqənin I mərhələsində ilk üç yeri tutan iştirakçılar yekun mərhələdə inşa yazaraq özünüifadə bacarıqlarını nümayiş etdirəcəklər. İnşa yazılar sərəncamla təsdiq olunmuş siyahıya daxil edilən əsərlərlə bağlı yazılacaq.

Qeyd edək ki, müsabiqənin II mərhələsi dekabr ayının 16-da keçiriləcək.

✍ **Nail ƏSGƏROV**

## Boks üzrə açıq şəhər birinciliyinə yekun vurulub

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü" münasibətilə yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.*



Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən birincilikdə 22 çəki dərəcəsində 60 idmançı qüvvəsini sınayıb. Beynəlxalq Boks Federasiyasının qaydalarına əsasən keçirilən yarışda Naxçıvan şəhərinin dəri əlcək ustaları ilə yanaşı, Babək rayon idmançıları da iştirak ediblər.

Gərgin mübarizə şəraitində keçən qarşılaşmada Murad Tağıyev, Ayxan Heydərov, Hüseyn Məmmədov, Fəxrəddin Əliyev, Amal Qasımov, Ruhin Ağamalıyev, Xəyal Musayev, Nizami Novruzov, Hüseyn Hüseynov, Pünhan Səmədov, Ülvi Süleymanov, Səfər Tağıyev, Cavid Hüseynov, Ayxan Süleymanov, Nadir Cəfərov, Rəşid Sadıqov, Xəyal Quliyev, Əli Vəliyev, Əbülfəz Xəlilli, Əlvan Cəfərov, Əlirza Mayıllı və Sərvər Abdullayev bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda qalib idmançılar təşkilatçıların diplomları ilə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**


***Bildiriş***

"Kənd enerji" Məhdud Məsuliyyətli Cəmiyyəti VÖEN:0200362331 fəaliyyəti dayandırıldığından ləğv olunur.

* * *

"Elektrik verilişi xətləri" Məhdud Məsuliyyətli Cəmiyyəti VÖEN:0200442581 fəaliyyəti dayandırıldığından ləğv olunur.

* * *

"İşıq" Məhdud Məsuliyyətli Cəmiyyəti VÖEN:0200352091 fəaliyyəti dayandırıldığından ləğv olunur.

* * *

"Elektrik təchizatı" Məhdud Məsuliyyətli Cəmiyyəti VÖEN:0200262851 fəaliyyəti dayandırıldığından ləğv olunur.



ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 1007**